# Cəsur döyüşçü - xüsusi təyinatlı hərbi qulluqçu Sərxan Bayramov



**Günəş yavaş-yavaş qüruba yaxınlaşırdı. Həlimət ana 5-ci mərtəbədəki mənzilin eyvanına çıxıb həyətə boylandı. Bərk qələbəlik idi - yaşlılar bir tərəfdə əyləşib sakitcə dərdləşir, gənclər deyə-gülə söhbətləşirdilər, futbol oynayan uşaqların harayı isə aləmi başına götürmüşdü. İçərilərində kiçik oğlu da vardı.**

Ananın yadına düşdü ki, bayaqdan top qovan dəcəl balasının qan-tərə, toz-torpağa batması bir yana, yeməyinin də vaxtı keçir. Tez onu səslədi: "Ay oğul, Sərxan, evə gəl!"

...İllər yaman sürətlə keçdi, elə övladlar da çox tez, bu səsin, çağırışın gedib-qayıtdığı zaman məsafəsində böyüdülər. Bayramovlar ailəsinin böyük oğlu Harun hərbçi peşəsini seçir, Ali Hərbi Akademiyanın məzunu kimi zabit rütbəsində Azərbaycan Silahlı Qüvvələrində qulluğa başlayır. Sərxan Zaqatala şəhərindəki şəhid Nizami Hüseynov adına 2 saylı orta məktəbdə təhsil alır. VIII sinfi bitirəndən sonra sənədlərini Naxçıvanski adına Hərbi Liseyə təqdim etsə də, qəbul oluna bilmir. Avtoçilingər işləyən atası Oqtay kişi ona sənətinin sirlərini öyrədir. İlyarımlıq əsgərlik dövrünü ruh yüksəkliyi ilə başa vurduqdan sonra müxtəlif işlərdə çalışır, valideynlərinə kömək göstərir. Lakin peşəkar hərbçilik sevdası bir an da olsa ürəyindən çıxmır. Bir gün ata-anasına "Spesnaz"a yazılmaq istədiyini söyləyir. Və beləcə, xüsusi təyinatlı bölmədə müddətdən artıq hərbi xidmətə qəbulla, nəhayət, çoxdankı niyyətini reallaşdırır. Ailədə xoşbəxt günlər yaşanırdı, Harun bir il idi ki, ailə qurmuşdu, Sərxanı evləndirməyə hazırlaşırdılar. Mart ayının 22-də qız evinə elçi gedilir, "həri"si alınır, aprelin 10-da nişan aparacaqlarmış...

Həlimət xanımın dediklərindən: "Vallah bilmirəm, necə anayam, heç yuxuma da gəlmədi, bir narahatlıq duymadım, ürəyimə də dammadı... Sərxanın ölümü haqqında heç vaxt fikirləşməmişdim, toyuna hazırlaşırdım axı. Mən onun üçün xonçalar tutacaqdım. Sərxan o qədər həyatsevən oğlan idi ki..."

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə işğalçı erməni silahlı birləşmələri növbəti təxribata əl ataraq, təmas xəttinin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətlərində atəşkəsi pozdular. Qəhrəman ordumuz nəinki azğın düşmənə ciddi müqavimət göstərdi, hətta şərəfsiz erməniləri öz mövqelərindən belə qovaraq, yüz kilometrlərlə geri oturtdu. Nəticədə Talış, Seysulan, Cocuq-Mərcanlı, Odundağ, Lələtəpə və digər yüksəkliklər işğaldan azad edildi. Azərbaycan Silahlı Qüvvələri 24 ildir ki, yağı caynağında inləyən həmin ərazilərə ilk dəfə qədəm qoydu. Cəsur qoşun birləşmələrinin önündə xüsusi təyinatlılar gedirdi. Sərxan Bayramovun da təmsil olunduğu kəşfiyyat bölüyü isə daha dərinliklərə, düşmənin içərilərinə qədər sıza bilmişdi...

Aprelin 2-də günortaya yaxın artıq cəbhə bölgəsində baş verənlər barədə məlumat bütün ölkəyə yayıldı, dünya mediasına ayaq açdı. Ermənilər yenə də öz amplualarında idilər, həyasızcasına ağlamsınır, qırılıb-çatıldıqlarından şikayətlənirdilər. Azərbaycanda da övladı, qohumu əsgərlikdə olanlar, ümumiyyətlə, hamı ehtiyatla soraqlaşmağa başladı. Sərxandan isə səhih bir xəbər yox idi - ona nə qazilər, nə də şəhidlər karvanında rast gəlinirdi.

10 aprel. 5-6 gündür ki, atəşkəs elan olunub. Qızıl Aypara Cəmiyyətinin vasitəçiliyi ilə neytral zonada qalan cansız vücudlar götürülür, dəyişdirilir. Sərxan da doğmalarının ongünlük həsrətinə "son qoyur", Zaqatalaya evə "qayıdır", vətən torpağını son dəfə qucaqlamaq, Azərbaycanın qoynunda əbədi uyumaq üçün... Amma o, eyni zamanda qəhrəmanlığı, böyük ideallar uğrunda canını qurban vermək bacarığı ilə xalqın ürəyinə köçür.

Həmin günlərdə Ermənistan baş qərargahı gecəgörmə cihazları vasitəsilə qeydə alınmış süjetlər yaydı. Görüntülərdə düşmənin arxasına keçmiş kəşfiyyat qrupumuzun hərəkəti də öz əksini tapıb. İşğalçılar bərk qorxu və çaşqınlıq içərisində ora-bura vurnuxurdular. Sonra yenidən atəş səsləri eşidilir. Düşmən heyrətini gizlədə bilmir: artıq qanlı savaşdan 24-26 saat ötüb, ayın 2-dən 3-nə keçən gecədir. Döyüş bitməli idi, fəqət arxa cəbhədə bir qrup hələ də vuruşur. Bəli, onlar axırıncı güllələrinə, son nəfəslərinə qədər döyüşdülər. Vətənə xidmətləri, şücaətləri də layiqincə qiymətləndirildi. Şəhid gizir Sərxan Oqtay oğlu Bayramov ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif edildi.

***Qurban MƏMMƏDOV***

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.10.